# MÜNTƏZİRLƏRİN (intizarda olanların) XÜSUSİYYƏTLƏRİ

<"xml encoding="UTF-8?>

MÜNTƏZİRLƏRİN (intizarda olanların) XÜSUSİYYƏTLƏRİ

Məhdini tanıyıb, imamlığına inanmaq*

İmam Məhdini (əc.) tanımadan, onun imamlığına iman gətirmədən necə intizarda olmaq olaq?! Bu inam həqiqi müntəzirlərin ümdə xüsusiyyəti, intizarın mühüm :amili və onun müqəddiməsidir. İmam Səccad (ə) bu barədə belə buyurur

ان اهل زمان غيبته،القائلون بأمامته،المتظرون لظهوره،افضل اهل كل زمان

Həqiqətən, qeyb dövrünün adamları onun imamlığını qəbul edib gözləsələr, digər" .[zamanların adamlarından üstün olarlar"[1

Təqva və gözəl əxlaq*

:İslamda üstünlük və böyüklük meyarı yalnız təqvadan ibarətdir

ان اكرمكم عند الله اتقكم

.[Allah yanında ən üstün və yaxşınız, ən təqvalı olanınızdır"[2

:Həmçinin, imanın dəyəri əxlaqın gözəlliyi ilə ölçülür

افضلكم ايمانا احسنكم اخلاقا

."Sizin aranızda ən imanlı şəxs, əxlaqı daha gözəl olanınızdır"

Buna görə də intizar çəkməyin fəzilət və üstünlüyü,təqva və gözəl əxlaq olmadan
.əldə edilə bilməz

:İmam Sadiq (ə) buyurmuşdur

من سر أن يكون من اصحاب القائم فلينتظر وليعمل بِالورع و محاسن الاخلاق وهو منتظر

Bizim qiyam edənimizin dost və köməkçilərindən olmaq istəyən intizarda olmalı"
.[və zühuru gözlədiyi halda təqva və gözəl əxlaqla rəftar etməlidir"[3

İtaət və tabelik*

Öz məsum imamının yolunu gözləyənlər, onun dini və dünyəvi rəhbərliyinə əqidə bəsləməli, itaətini vacib bilməli və qeyb dövründə əmrlərinə tabe olmaqla, özünü
.zühur vaxtı onun qeyd-şərtsiz itaətinə hazırlamalıdır

:İmam Sadiq (ə) buyurmuşdur

طوبى لشيعة قائمنا المنتظرين لظهوره فى غيبته والمطيعين له فى ظهوره

Xoş bizim qiyam edənimizin şiələrinin halına! Onlar qeyb dövründə intizarda olar,"
.[zühur dövründə isə ona itaət göstərərlər"[4

Həzrət Məhdinin (əc.) dostlarıyla dost və düşmənlərinə qarşı düşmən olmaq*

Hər bir insanın ən mötəbər dostluq meyarlarından biri, onun dostluq və düşmənliklərini araşdırmaqdır. Düşmənin dostunu və dostun düşmənini heç zaman dost adlandırmaq olmaz; necə ki, dostun dostunu və düşmənin düşmənini düşmən hesab etmək düzgün deyildir. Təbiidir ki, hər bir insan öz dostunun dostlarıyla dost və düşmənlərilə düşmən olur. İmam Məhdinin (əc.) həqiqi müntəzirləri də, heç şübhəsiz ki, onun dostlarını sevib, düşmənlərinə qarşı düşmən olmalıdırlar; çünki onların bu intizarı, imamlarına olan eşq, məhəbbət və

.sonsuz hörmətlərinin təzahürüdür

:Peyğəmbər (s) buyurmuşdur

طوبى لمن ادرك قائم اهل بيتى وهو يأتم به فى غيبته قبل قيامه وليتولى اوليا ئه و يعادى اعدائه

Xoş olsun mənim əhli-beytimin qiyam edənini görəcək şəxslərə; onlara ki, hələ" qeyb dövründə və qiyamından qabaq ona iman gətirər, dostlarıyla dost və .[düşmənlərinə qarşı düşmən olarlar"[5

İNTİZAR

Nəhayət, İmam Məhdinin (əc.) üzücü qeyb dövrü başa çatacaq və əzəmətli zühur .dövrü, İslam və tövhidin qələbə dövrü başlayacaqdır

İmam Məhdini (əc.) bu əqidə ilə tanıyanlar, onun vilayət və itaət peymanını öhdəsinə götürənlər həmişə gözüyolda olub, özlərini və cəmiyyəti zühur dövrünə .hazırlamağa çalışırlar

Müqəddəs hədislərdə vəd olunmuş Məhdinin (əc.) intizarını çəkmək, Allah yolunda cihad və hətta Peyğəmbər (s) qabağında cihad edib, şəhid omaqla bərabər bilinmişdir[6]. Bu, bir tərəfdən qeyb dövründə intizarda olmağın çox böyük əhəmiyyətini, digər tərəfdən isə, intizar yolunun çətinliklərini və bu yolda daha artıq .zəhmətin lazım olduğunu göstərir

İntizar, heç də bir yerdə oturmaq, laqeydlik və gələcəyə göz dikmək demək deyil. İntizar - ayağa qalxmaq, fəsad və zülmlərə qarşı etiraz etmək və aydın sabahlara .zəmin yaratmaq d m kdir

. Biharul-ənvar, c. 52, səh: 122, hədis: 4[1]

. Hucurat/13[2]

. Biharul-ənvar, c. 52 səh: 140, hədis: 50[3]

. Yenə orada, səh: 150, hədis: 76[4]

. Yenə orada, c. 51, s  h: 72[5]

. Biharul-ənvar, c.52, səh: 126[6]